iki sahil 2020.- 15 oktyabr.- S.25.

# Pandemiya ilə mübarizədə qələbəni məsuliyyətimizlə sürətləndirək

## AZƏRBAYCAN ÖN CƏBHƏDƏ DÜŞMƏNLƏ, ELƏCƏ DƏ DÜŞMƏN QƏDƏR TƏHLÜKƏLİ OLAN COVID-19-la MÜBARİZƏSİNİ DAVAM ETDİRİR

**Son günlər bir qədər arxa plana düşən COVID-19 bir sıra ölkələrdə ikinci baharını yaşamaqdadır. Dünyanın bir sıra ölkələrində pandemiya səngiməkdənsə, daha da alovlanmağa başlayıb. Payız fəslində ənənəvi hesab etdiyimiz mövsümi xəstəliklər də baş qaldırıb. Bununla yanaşı tədris ilinin başlaması ilə həm qripə, həm də koronavirusa yoluxma hallarının artması müşahidə edilir. Yerli mütəxəssislər əhaliyə müraciət edərək təhlükəsizlik tədbirlərinə bir daha diqqət çəkiblər.**



"Worldometers" portalının məlumatına görə, dünyada koronavirus infeksiyasına yoluxanların sayı 38 milyon nəfəri ötüb. Bildirilir ki, indiyədək dünyada koronavirusdan ölənlərin sayı 1 milyonu keçib. Yoluxma sayına görə ilk sıralarda olan dövlətlər ABŞ, Hindistan, Braziliya, Rusiya, Kolumbiyadır.

Avropa ölkələrində yoluxmaların sayı artdığından bəzi yerlərdə yenidən sərt karantin rejimi tədbirləri görməyə başlayıblar. Bir çox ölkələr koronavirusla bağlı məhdudiyyətləri yumşaltdıqdan sonra COVID-19-a yoluxanların və bu virusdan ölənlərin sayında sürətli artım baş verir. Mütəxəssislər yoluxma sayının artmasını yumşaldılma tədbirlərindən sonra insanların qaydalara riayət etməmələri, maska taxmamaları və ya sosial məsafəni gözləməmələri ilə də əlaqələndirir və məhdudiyyətlərin tətbiqinin zərurətə çevrildiyinə diqqət çəkirlər.

Qeyd edək ki, mütəxəssislər və dünyanın aparıcı epidemioloqları hələ aprel ayında ehtimal olunan ikinci dalğanın payız ayına təsadüf edəcəyini təxmin edirdilər. Artıq bunu İtaliya, Fransa, İspaniya, İsrail, Ukrayna, Türkiyə və Gürcüstan kimi qonşu ölkələrdə görürük. Bu ölkələrin bəzilərində artıq hava məkanı qapadılıb, turist qəbulu dayandırılıb, bəzilərində ölkədaxili məhdudiyyətlər tətbiq olunub, sərt karantin rejiminə keçiblər. Azərbaycanda ikinci dalğanın oktyabrın ortalarına təsadüf edəcəyi təxmin edilir. Bu, hələlik fərziyyədir. Dəfələrlə pandemiyaya məruz qalmış ölkələrin təcrübələrinə əsasən, ikinci dalğanın gücünün birincidən daha dağıdıcı olması ehtimalı da var.

Azərbaycan COVID-19-la ən səmərəli mübarizə aparan nümunəvi ölkələrdəndir. Belə ki, heç bir ajiotaj yaşanmadan düşünülmüş və məqsədyönlü model ortaya qoyuldu. Ölkəmiz yoluxma və ölüm sayının azlığına görə ən yaxşı nəticələr nümayiş etdirən ölkələr sırasındadır. Epidemiyanın ən təhlükəli sayılan başlanğıc mərhələsində Azərbaycan rəhbərliyi yaxşı mənada bundan dərhal duyuq düşərək xəstəliyə qarşı mübarizənin bütün aspektlərini əlaqələndirən konkret addımlar atdı. Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət bir daha göstərir ki, insan amili dövlətimiz üçün prioritetdir yəni, əhalinin sağlamlığı, təhlükəsizliyi, ölkəmizin inkişafı və cəmiyyətimizin rifahı hər şeydən öndə gəlir.

Oktyabrın 14-nə olan məlumata görə, Azərbaycanda koronavirus infeksiyasından 102 nəfər sağalıb, 369 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, son sutkada 4 nəfər COVID-19-dan vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 42 min 750 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 39 min 570 nəfər müalicə olunaraq sağalıb, 616 nəfər vəfat edib. Aktiv xəstə sayı 2 564 nəfərdir. Sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 734, ötən müddət ərzində isə ümumilikdə 1 193 870 test aparılıb.

Bu gün Azərbaycan nəinki ön cəbhədə düşmənlə mübarizə aparır, eləcə də düşmən qədər təhlükəli olan COVID-19- la mübarizəsini davam etdirir. Çünki son günlər pandemiyaya yoluxanların sayında artım var. Bu, artıq Azərbaycanda koronavirusu yenidən gündəmə gətirir.Onu da qeyd edək ki, Nazirlər Kabineti Azərbaycanda koronavirusla mübarizədə tətbiq olunan xüsusi karantin rejiminin müddətinin noyabrın 2-dək uzadılması barədə Qərar verib.

Oktyabrın 7-də Baş Nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın pandemiya ilə mübarizəni gücləndirmək və karantin rejiminə daha ciddi əməl olunması üçün tədbirlərə həsr olunmuş geniş müşavirəsi keçirilib. Müharibə şəraitində ölkədə koronavirusla mübarizənin vəziyyəti və görüləcək tədbirlər müzakirə olunub. Baş Nazir Əli Əsədov qeyd edib ki, koronavirusla mübarizədə qazanılmış nailiyyətləri qoruyub saxlamaq və bütün resursları cəbhəyə yönəltmək üçün karantin rejiminin qaydalarına nəzarəti gücləndirmək lazımdır. Baş Nazir bildirib ki, xüsusilə iş yerlərində, ictimai nəqliyyatda, ticarət mərkəzlərində və təhsil müəssisələrində qaydalara əməl edilməsinə daha ciddi nəzarət edilməlidir. Baş Nazir Əli Əsədov məsələ ilə bağlı vətəndaşlara müraciətində bildirib ki, xalqımız cəbhədən gələn qələbə xəbərlərini çox böyük coşqu və fərəh hissi ilə qarşılayır, şanlı Ordumuza dəstək vermək, sevinclərini bir-birləri ilə bölüşmək üçün insanlar bir yerə toplaşırlar. Vətəndaşlarımız arasındakı emosional ruh yüksəkliyi təmasların artması isə müşahidə olunur ki, bu da davam edən koronavirus xəstəliyi fonunda insanların sağlamlığına böyük təhlükələr yarada bilər. İndiyə qədər pandemiya ilə mübarizədə qazandığımız nailiyyətləri itirməmək üçün karantin rejiminin qaydalarına əməl olunması zəruridir. Belə bir mürəkkəb dövrdə torpaqlarımızın azad olunması uğrunda göstərdiyimiz birlik, vətəndaş həmrəyliyi və intizamın görünməz düşmən olan koronavirus xəstəliyi ilə mübarizədə də göstərilməsi olduqca vacibdir. Odur ki, hər bir vətəndaşa müraciət edərək karantin rejiminin tələblərinə daha ciddi əməl etməyə, bununla da bütün gücümüzü işğalçı düşmənlə mübarizə üçün səfərbər etməyə çağırırıq".

Səhiyyə Nazirliyinin Baş infeksionisti Təyyar Eyvazovun sözlərinə görə, həm mövsümi qrip, həm də koronavirusdan qorunmaq üçün aylardır verilən tövsiyələrə əməl etmək lazımdır: "Biz payız-qış mövsümünə daxil oluruq. Hava soyuyur, insanların immuniteti aşağı düşür. Belə şəraitdə yoluxma ehtimalı da daha çoxdur. Digər respirator xəstəliklərin də dövrü gəlir. Hazırda dövlətimizin əsas fikri Qarabağ cəbhəsindədir. Amma bu da bir cəbhədir. Mən xalqımızdan xahiş edirəm ki, arxa - koronavirus cəbhəsində özlərini elə aparsınlar ki, dövlətimiz gücünü Qarabağa yönəldə bilsin. Baxmayaraq ki, sağalanların sayı çoxdur, aktiv xəstələrin sayı azalmaqda davam edir, bunu unutmaq olmaz. ÜST-ün Azərbaycan ofisi də bununla bağlı xalqa müraciət edib. Aylardır tövsiyə olunan sadə tədbirlərə əməl olunmalıdır - maska taxılmalı, sosial məsafə gözlənməlidir. Buna ciddi riayət olunsa, dövlətimiz hər iki cəbhədə uğur qazana bilər".

Son günlər artan yoluxma sayı göstərir ki, vətəndaşlar virusa yoluxanların sayının azaldılması məqsədilə, özünü və yaxınlarını yoluxmadan maksimum qorumaq üçün mövcud preventiv tədbirlərin şərtlərinə və tibbi-profilaktik qaydalara riayət etməlidir. Yenidən sərt karantin rejiminə qayıtmaq istəmiriksə, hamılıqla bu qaydalara riayət etməli, yeni həyat tərzinə uyğunlaşmalıyıq. Sanitar-epidemioloji tələbləri pozanlara qarşı birlikdə mübarizə aparmalıyıq. Tələblərə nə qədər düzgün əməl edilsə, bu bəladan da o qədər tez və az itki ilə çıxacağıq. Hazırda məhdudiyyətlərin çoxu aradan qaldırılıb, amma yenə də diqqət edilməli məqamlar var. Hələ ki, bəzi qadağaların qüvvədə olmasının əsas səbəbi insanların sağlamlığının qorunması, virusa yoluxma riskinin minimuma endirilməsi üçündür. Xəstəliyi yayan da bizik, ondan qorunmaq istəyən də. Payız fəslinin başlanması ilə əlaqədar olaraq, mövsümi xəstəliklərin də yayılıb həkimləri çaşdırmaması üçün, özümüzü taleyin ümidinə buraxmamalı, sağlam qalmaq naminə operativ qərargahın tələblərinə uyğun qorunmalıyıq. Bununla yanaşı, hər birimiz üçün həssas olan bu günlərdə ön cəbhədə uğurlu əks-hücum əməliyyatı aparan şanlı ordumuza, eyni zamanda, bəşəri bəlaya-COVID-19 infeksiyasına qarşı mübarizə aparan fədakar həkimlərimizə dəstək olmaq üçün arxa cəbhədə olan bizlərdən daha məsuliyyətli olmaq tələb olunur ki, hər iki mübarizədə zəfər bizim olsun.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***